UOT 334.7; 658.11; 658.582

Mirvari Bəylər qızı MƏMMƏDOVA
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin
(SOCAR-ın) Baş Ofisi, “Büdcə və planlama” Departamenti
“Büdcələmə” şöbəsinin rəisi, i.ü.f.d.
mirvari.mammadova@socar.az

Qalib Bəhram oğlu HACIYEV
Aqrar Tədqiqatlar Mərkəzinin doktorantı, i.ü.f.d., dosent
galib.haciyev@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2024.004.068

GƏMİ TƏMİRİ MÜƏSSİSƏLƏRİNİN NÖVLƏRİ VƏ ONLARIN İNKİŞAF PROBLEMLƏRİ

Xülasə

Tədqiqatın məqsədi - müasir iqtisadi şəraitdə gəmi təmiri müəssisələrinin növlərinin nəzəri araşdırılması və onların inkişaf problemlərinin müəyyən olunmasıdır.

Tədqiqatın metodologiyası - tədqiqatda sistemli yanaşma, məntiqi ümumiləşdirmə, sintez və analiz üsullarından istifadə edilib.

Tədqiqatın tətbiqi əhəmiyyəti - tədqiqatda əsaslı araşdırmalar gəmi təmiri müəssisələrinin inkişaf problemlərinin əsas istiqamətlərinin müəyyənləşdirilməsinə şərait yaratmaq imkanına malikdir.

Tədqiqatın nəticələri - işləyib hazırladığımız tövsiyələrimiz ölkəmizin gəmiqayırma sənayesində gəmi təmiri müəssisələrinin məntiqi və ardıcıl bir alqoritm əsasında bütün problemləri nəzərə alaraq səmərəli strategiyanın yaradılması ilə problemlərin əsas hissəsini həll etməyə imkan verəcəkdir.

Tədiqiqatın orijinallığı və elmi yeniliyi - gəmi təmiri müəssisələrinin inkişaf xüsusiyyətlərini öyrənmək üçün ölkəmizin iqtisadiyyatının modernləşdirildiyi şəraitdə gəmi təmirinin təşkilinin zəruriliyi əsaslandırılmış, gəmi təmiri müəssisələrinin növləri və təmirlə əlaqədar məsələlərin tənzimlənməsi istiqamətləri müəyyənləşdirilmişdir.

Açar sözlər: gəmi təmiri, gəmiqayırma, iqtisadi, sənaye, müəssisə, növ, inkişaf, problem.

Giriş

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra ümummilli lider H.Ə.Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində yaranmış sağlam biznes mühiti beynəlxalq investorların diqqətini cəlb etdi. Ümummilli liderin möhkəm iradəsi ilə formalaşmış bu cür əlverişli iqtisadi şəraitdə dünyanın nəhəng investorlarının iştirakı ilə «Əsrin kontraktı» imzalandıqdan sonra ölkə iqtisadiyyatı sıçrayışlı inkişafa qədəm qoydu. Ölkəmizin milli iqtisadiyyatının, xüsusilə də neft-qaz sənayesinin inkişafında böyük əhəmiyyətə malik olan gəmiçiliyin formalaşması üçün gəmi təmiri sənayesinin təşkil olunaraq təkmilləşdirilməsinə böyük zərurət yaranmışdır. Ölkəmizdə gəmi təmiri sənayesinin təşkili məqsədilə onun növlərinin nəzəri baxımdan araşdırılması və inkişaf problemlərinin müəyyənləşdirilməsi xüsusi aktuallığa malikdir.

Ölkəmizin iqtisadiyyatının modernləşdirildiyi şəraitdə gəmi təmirinin təşkilinin zəruriliyi

Sənayenin təşkilinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci ildə imzaladığı «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər» haqqında Sərəncamına əsasən həyata keçiriləcək iqtisadi tədbirlər yaxın illərdə ölkəmizin milli iqtisadiyyatının sahələrinin inkişafında mühüm rol oynayacaqdır. Bu Prioritetlərə əsasən indiyədək və yaxın dövrlərdə ölkəmizdə rəqabət imkanlı iqtisadiyyatın təşkili; sosial ədalətə əsaslanan cəmiyyətin yaradılması; müasir innovasiyaların iqtisadi sahələr üzrə tətbiqi; yeni işğaldan azad olunmuş regionlara qaçqın və köçkünlərin qayıtmasının həyata keçirilməsi; «yaşıl artım» ölkəsinin yaradılması və s. istiqamətləri üzrə məqsədəuyğun tədbirlərin reallaşdırılması davam edir [1].

XX əsrin sonunda və XXI əsrin əvvəllərində sürətli inkişafa nail olmuş ölkələrin (məsələn, Cənubi Koreya, Malayziya, Sinqapur və s.) təcrübəsi sübut etdi ki, ölkənin rəqabətqabiliyyətli iqtisadiyyata nail olması və davamlı inkişaf mərhələsinə keçməsi üçün sənayenin sürətli və çoxşaxəli inkişafı mühüm əhəmiyyət kəsb edir. Son illərdə respublikamızda sənayenin milli iqtisadiyyatımızdakı rolu artmaqdadır. Lakin, bu sürətli artım əsasən ölkədə həyata keçirilən uğurlu neft strategiyasının və neft sektorunun hesabına baş verir [4, s. 40]. Azərbaycan iqtisadiyyatının modernləşdirildiyi belə bir iqtisadi şəraitdə gəmi təmiri sənayesinin təşkilinin təkmilləşdirilməsi vacibdir. Bunun üçün ilk növbədə nəzəri araşdırmalar əsasında gəmi təmiri müəssisələrinin növləri və onların inkişaf problemləri müəyyən olunmalıdır. Gəmilərin dayanma vaxtlarını azaltmaqla onların istimar müddətinin artırılması hesabına dənizçilik, balıqçılıq, nəqliyyat, elmi-tədqiqat və digər donanmaların fəaliyyətinin səmərəliliyinə əhəmiyyətli dərəcədə nail olmaq mümkündür. Gəmilərin təmirə sərf olunan vaxtı, dayanaraq ümumi işləməyən vaxtın strukturunda daha yüksək xüsusi çəkiyə malikdir.

Gəmilərin təmiri onun hissələrinin, komponentlərinin və montajlarının xüsusiyyətlərinin tam və ya qismən bərpasını təmin edən işlərin məcmusundan ibarətdir. Gəmi avadanlıqlarının və gəmilərin istismar parametrlərinin bərpa olunması təmirin əsas məqsədini təşkil edir. Gəminin istifadə olunduğu dövrdə əsasən profilaktik əməliyyatlardan ibarət olan və aşınma intensivliyini azaltmağa, nasazlıqları aradan qaldırmağa və vaxtında aşkar etməyə yönəlmiş işləri əhatə edən vahid texniki xidmət kompleksi həyata keçirilir. Gəmilərin planlı təmiri texniki xidmətdən fərqli olaraq, onların gəmi təmiri müəssisəsinə yerləşdirilməsi üçün istismardan çıxarılması tələb edilir.

Gəmi təmirinin təşkili və onun təkmilləşdirilməsinə dair nəzəri yanaşmalar

A.N.Yudenko hesab edir ki, «bu gün gəmilərin inşası və təmirinə gəldikdə, gəmiqayırma sənayesində istehsalın təşkili və idarə edilməsində əmək tutumu əsas texniki-iqtisadi göstəricidir. Əmək tutumunun dəyərindən maya dəyəri, məhsulun qiyməti, əməkhaqqı fondu, qaimə xərcləri, planlaşdırma, rentabellik, gəminin texniki hazırlığı müəyyən edilərkən istifadə olunur» [12, s. 81].

M-G.Manea və E.Manea qeyd edirlər ki, «...hazırda istənilən gəmiqayırma zavodunun əsas məqsədi gəmilərin vaxtında, mümkün qədər az xərclə, keyfiyyət tələblərinə əməl olunması və yüksək müştəri məmnuniyyətinin təmin edilməsidir» [14, s. 82]. 1979-cu ildə J.E.Kaune tərsanələrə nəzarət edən əsas idarəetmə planının mövcudluğunu müəyyən etdi [13]. Onun fikrincə, bütün proses optimallaşdırıla bilər və ona görə də onun optimallaşdırılması vacibdir. Lakin vəziyyəti ümumi nəzərə almadan hər hansı bir hissəni maksimuma çatdırmaq problemlərə səbəb olacaq. J.E.Kaune gəmi təmiri sahəsində uğurlu prosesin inkişaf etdirilməsi üsulunu təklif etmişdir. O, eyni zamanda inkişafdan sonra onun davamlılığının təmin olunması məqsədilə idarəetmə üsullarının təkmilləşdirilməsini tövsiyə etmişdir.

Müasir gəmi təmiri zavodları sexlərə, körpülərə, tərsanələrə, köməkçi donanmaya malik sənaye müəssisəsidir. Zavodlarda gəmi təmiri işləri görülür, kiçik tonnajlı gəmilər tikilir, dəniz gəmiləri və limanların yükaşırma maşınları üçün dəyişək-ehtiyat hissələri, naviqasiya avadanlıqları, konteynerlər və s. hazırlanır. Gəmi təmiri zavodlarının qarşısında duran əsas məsələ gəmilərin təmir xərclərinin azaldılması, texnologiyanın təkmilləşdirilməsi, təmir müddətinin azaldılması və onun keyfiyyətinin yaxşılaşdırılması, istehsal gücünün artırılmasından ibarətdir. Donanmanın təmir müddətinin azaldılması mühüm əhəmiyyət kəsb edir. Gəmilərin uzun müddət təmirdə olmaları dəniz daşımalarının inkişafını ləngidir və təmiri bahalaşdırır. Yükgötürmə qabiliyyətinin və energetik qurğuların güclərinin, enerji təminatının və müvafiq olaraq inşaat xərclərinin artması, gəmilərin istismardan çıxardılması, daha çox maddi dəyərin təmin olunmasına və istehsal dövriyyəsindən çıxarılmasına gətirir. Son illər gəmi təmiri zavodlarının texniki iqtisadi inkişafına daxil olan əsas istiqamətlərə kompleks mexanikləşdirmə, müəssisənin avtomatlaşdırılması və ixtisaslaşdırılması və s. daxildir [9, s. 70].

Təmirin iqtisadi mahiyyəti müxtəlif proseslərin və hadisələrin texniki səbəblərdən və istismar şəraitindən asılı olan əsas vəsaitlərin elementlərinin qeyri-bərabər davamlılığına əsaslanır. Ümumiyyətlə, təmir işləri (xüsusilə gəmi təmiri işləri) əsas vəsaitlərin istifadəsi ərəfəsində onlara xas olan bir hadisədir. Buna əsaslanaraq gəmi təmiri gəminin itirilmiş istismar xassələrinin bərpasını

təmin edən və onun maddi hissəsinin vaxtından əvvəl köhnəlməsinin qarşısını alan təşkilati-texniki tədbirlər kompleksi hesab edilməlidir.

Əsas vəsaitlərin istifadəsinin obyekti fiziki və mənəvi aşınmaya məruz qalır. Fiziki qüvvələrin, texniki-iqtisadi amillərin təsiri nəticəsində onlar öz xassələrini tədricən itirir və bunun da nəticəsində yararsız hala düşərək öz funksiyalarını yerinə yetirə bilmirlər. Fiziki aşınma təmir və rekonstruksiya baxımından qismən bərpa olunur. Mənəvi aşınma əsas vəsaitlərin köhnəlməsi nəticəsində istehsal olunan məhsulun yeni nümunələrinin də geri qalmasında özünü təzahür etdirir. Ona görə də vaxtaşırı olaraq əsas vəsaitlərin, xüsusilə də onların aktiv hissələrinin dəyişdirilməsi zərurəti yaranır. Bu zaman müasir iqtisadiyyatın əsas amili kimi mənəvi aşınma əsas hesab olunur. Müəssisənin əsas vəsaitlərinə aid olan obyektlər uzun müddət ərzində aşınmalara məruz qalaraq öz dəyərlərini xeyli azaldırlar [9, s. 85].

Gəmilərin texniki vasitələrinin maddi hissəsinin təbii aşınması, habelə onların düzgün işləməməsi və təbii fəlakətlər nəticəsində köhnəlməsi çoxlu qüsurların yaranmasına səbəb olur. Həmin qüsurların aradan qaldırılması prosesi gəmi təmirinin əsas məqsədidir.

Müasir gəmi əhəmiyyətli dərəcədə ilkin dəyərə malik olan mürəkkəb mühəndislik konstruksiyasıdır. Ona görə də müasir gəmilərdə fiziki aşınma səbəbindən avadanlıqların, mexanizmlərin və texnoloji xətlərin iş parametrləri azalır. Bu cür halın yaranması gəminin iqtisadi göstəricilərinə öz təsirini göstərir. Belə ki, gəminin əsas mühərrikinin köhnəlməsi yalnız güc itkisinə deyil, həm də gəminin sürətinin azalmasına və yanacaq-sürtkü materiallarının həddindən çox istifadə olunmasına səbəb olur. Gəminin həddən çox köhnəlmiş hala düşməsi üzgüçülük təhlükəsizliyi və mexanizmlərin istismarı qaydalarının pozulması üçün ilkin şərtlər yaradır. Bu baxımdan tam işlək hala salınması məqsədilə gəminin təmiri zamanı bərpa edilməsi onların texniki və iqtisadi göstəricilərini bərpa etməyə şərait yaradan obyektiv bir zərurətdir.

Gəminin gövdəsinin texniki vəziyyətinin bütün istismar müddəti ərzində ən az xərclə müəyyən səviyyədə saxlanılması nəqliyyat sənayesinin mühüm iqtisadi vəzifəsidir, onun həlli üçün səmərəli yollardan biri gəminin gövdəsində optimal qüsurların aşkar edilməsidir. Bu problemin həllində bilavasitə gəmi sahibi, nəzarət edən təşkilat və gəminin gövdəsinin texniki vəziyyətini bərpa edən təmir təşkilatı iştirak edir. Eyni zamanda, yalnız gəmi sahibi gövdələrin texniki vəziyyətinin saxlanması xərclərini azaltmaqda maraqlıdır, çünki təmirlə bağlı bütün xərcləri o ödəyir. Gəmi təmiri müəssisəsi gəmi sahibinə aid deyilsə, hər halda, aşkar edilmiş qüsurlu elementlərin sayı, təmirə sərf olunan vaxt, istifadə olunan materiallar və s. səbəbindən gövdə təmir işlərinin həcmini artırmaqda maraqlıdır [10, s. 916].

Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinin 15.2-ci maddəsinə əsasən ölkəmizin ərazisində gəmilərin inşasına və ya təmirinə, eləcə də Azərbaycan Respublikasının Dövlət bayrağı altında ölkəmizin hüdudlarından kənarda gəmilərin inşasına texniki nəzarət təsnifat cəmiyyətləri tərəfindən həyata keçirilir. Bu Məcəllənin 38.3-cü maddəsinə əsasən zədə almış gəminin bərpa edilməsi mümkün olmadığı halda, yaxud da gəminin təmiri iqtisadi baxımdan məqsədə müvafiq olmadıqda, gəmi konstruktiv cəhətdən məhv edilmiş sayılır. Bu Məcəllənin 227-ci maddəsində qeyd edilir ki, *ümumi təhlükəsizlik naminə, yaxud ümumi qəzada əmlakın qurban verilməsi nəticəsində vurulmuş zərərin aradan qaldırılması üçün yükün vurulduğu yerdə, gəminin daxil olduğu yerdə və ya sığınacaq yerində gəminin müvəqqəti təmirinə çəkilmiş xərclər ümumi qəzaya aid edilir. Səfəri başa çatdırmaq üçün zəruri olan təsadüfi zədələrin müvəqqəti aradan qaldırılması üçün çəkilən xərclərin əvəzi yalnız qarşısı alınmış xərclərin (lakin qarşısı alınmayacağı təqdirdə ümumi qəzaya aid edilə biləcək) həddində ödənilir* [2].

Gəmi təmiri müəssisələrinin növləri və təmirlə əlaqədar məsələlərin tənzimlənməsi istiqamətləri

Hər bir ölkə iqtisadiyyatı üçün kiçik və orta sahibkarlığın (KOS) inkişafı rəqabət qabiliyyətinin artırılması, məşğulluğun təmin edilməsi, istehlak malları və xidmətlərə olan tələbatın yerli resurs-lar hesabına təmin edilməsi üçün əsas şərtlərdən biridir. Məhz bu səbəbdən Azərbaycanda davamlı iqtisadi inkişafın əsas hərəkətverici amili kimi KOS-un təkmilləşdirilməsi istiqamətində dövlət dəstəyi həyata keçirilməkdədir. 2016-cı ilin dekabr ayında ölkə Prezidentinin fərmanı ilə təsdiq edilən

«Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»ndə qeyd edildiyi kimi, Azərbaycanda KOS-un və bütövlükdə, ölkə iqtisadiyyatının inkişaf etdirilməsi üçün güclü potensial və geniş imkanlar mövcuddur. Buna görə ümumi biznes mühitinin yaxşılaşdırılması, maliyyə resurslarına çıxış imkanlarının daha səmərəli təşkil edilməsi, kiçik və orta sahibkarlıq subyektlərinin yerli və xarici bazarlara çıxışının təmin edilməsi, bacarıqlı və ixtisaslı kadr təminatının yaradılması üçün vacib addımlar atılmalıdır [6, s. 30].

Ölkəmizdə biznes mühitinin yaxşılaşdığı şəraitdə kiçik və orta sahibkarlıq subyektlərindən olan gəmi təmiri müəssisələrinin fəaliyyətinə tam aydınlıq gətirilməsi üçün onların növləri şərh olunmalıdır. Gəmi təmiri üzrə bütün sahibkarlıq qurumları bir-birindən göstərilən xidmətlərin həcminə, istehsal fondlarının strukturuna, işçi heyətinin sayı və tərkibinə görə fərqlənirlər. Gəmi təmiri müəssisələrinin əsas növləri cədvəl 1-də göstərilmişdir.

Cədvəl 1

Gəmi təmiri müəssisələrinin növləri

Gəmi təmiri zavodu	Gəmi təmiri və mexaniki zavodu	Gəmi təmir bazası	Gəmi təmiri tərsanələri	Gəmi təmiri emalatxanası
Hər növ gəmi təmirini təmin edən müəssisə. Belə zavodda gəmiqaldırma qurğuları var və təmirdə olan gəmilərin təhlükəsiz dayanması üçün zəruri olan hidrotexniki qurğulara (yanacaqlar, dalğaqıranlar, sahil mühafizəsi və s.) malikdir.	Müəssisə gəmi mexanizmlərinin, dizel ehtiyat hissələrinin, qeyri-standart avadanlıqların və s. istehsalı üzrə inkişaf etmiş maşınqayırma istehsalı sistemidir.	Gəmi təmiri emalatxanaları ilə yanaşı, müxtəlif profilli bir sıra istehsal bölmələrini özündə birləşdirən müəssisədir.	İnkişaf etmiş gövdə istehsalı olan və gəmi təmiri ilə yanaşı, kiçik gəmiqayırma işlərini də həyata keçirən gəmi təmiri zavodlarının məcmusudur.	Kiçik istehsal müəssisəsi. Emalatxanalar kiçik və orta tonnajlı gəmilərin xırda və əsasən profilaktik təmirini həyata keçirir. Bir qayda olaraq, öz su sahələri yoxdur və limanların və donanma bazalarının yaxınlığında yerləşən gəmilər təmir olunur. Bu variant, xüsusi olaraq tikilmiş və ya yenidən təchiz edilmiş gəmilərdə yerləşən üzən gəmi təmiri emalatxanalarıdır.

Hazırda ölkəmizin dəniz nəqliyyatı sferasında idarəetmənin, tənzimləmənin və nəzarət mexanizmlərinin təkmilləşdirilməsinə böyük zərurət yaranmışdır. Eyni zamanda bu sferada ölkəmizin dəniz limanlarında fəaliyyətin dövlət tənzimlənməsi istiqamətində reallaşdırılan işlərin optimallaşdırılmasına və rəqabətqabiliyyətli dəniz nəqliyyatı sferasının formalaşdırılmasına ehtiyac vardır. Bu kimi vəziyyətin yaxşılaşdırılaraq aradan qaldırılması məqsədilə 11.10.2021-ci il tarixində Azərbaycan Respublikası Prezidenti İ.H.Əliyev tərəfindən «Dəniz nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında» Fərman imzalanmışdır. Bu Fərmanın 1-ci bəndinə əsasən «Dövlət Dəniz və Liman Agentliyi» publik hüquqi şəxs yaradıldı. Bu qurumun Nizamnaməsinin 3-cü maddəsi ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq Agentliyin İdarə Heyəti onun idarə olunmasını və hüquqlarını müəyyənləşdirir. Bu zaman Agentliyin idarə olunması və hüquqları müəyyənləşdirilərkən təmir işləri ilə əlaqədar məsələlər aşağıdakı istiqamətlərdə nəzərdə tutulmuşdur:

- texniki nasazlıq vəziyyəti və ya pis hava şəraiti ilə işləmək üçün dənizdə köməksiz olan gəmilərə yedəklə və ya digər yardımçı gəmilərlə kömək təmiri qurmaq (maddə 3.1.19);
- gəmilərin konstruksiyasında dəyişikliklərlə, gəmidə enerji təchizatı modifikasiyası, layihələndirmə və təmir işləri ilə əlaqədar layihələrə razılıq vermək (maddə 3.1.35);
- gəmilərin təmiri, dəniz nəqliyyatı sahəsində Azərbaycan tərəfi üçün nəzərdə tutulmuş müqavilələrin tələblərindən istisnaların təmin olunmasına icazə verilməsi (maddə 3.1.36);

- dəniz nəqliyyatı sahəsinin inkişafına səbəb olan obyektləri, gəmiləri, texniki gəmi avadanlıqları və digər qurğuları Azərbaycan Respublikasının normativ hüquqi-aktları ilə yaradılmış tikinti, istismar, təmir və təchizat tələblərinə və dəniz enerjisi sahəsində beynəlxalq müqavilələrə uyğun olaraq quraşdırmaq (maddə 3.1.39) [3].

Gəmi təmiri müəssisələrinin inkişaf problemləri

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi QSC nəqliyyat donanması ilə yanaşı, ixtisaslaşdırılmış donanması, gəmi təmiri zavodları və limanları olan Respublikanın ən böyük gəmiçilik şirkətidir. Dövlət Dəniz Administrasiyası (DDA) Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi QSC və digər gəmiçilik şirkətləri ilə strateji inkişaf üçün sıx əməkdaşlıq etməkdədir. DDA dəniz nəqliyyatı sahəsində fəaliyyət göstərən qurumlarla müxtəlif sahələr üzrə davamlı olaraq məsləhətləşmələr aparır, həmçinin həmin qurumların Administrasiyanın müvafiq əməkdaşları ilə birbaşa əlaqə qurulması və onları maraqlandıran suallara dair tövsiyələr verilməsi üzrə müvafiq tədbirlər görməkdədir. Dəniz nəqliyyatı sahəsində fəaliyyət göstərən qurumlarla onların qarşılaşdığı problemlər üzrə müvafiq müzakirələrin aparılması və müvafiq tədbirlər həyata keçirilərkən həmin qurumların fəaliyyətə cəlb edilməsi səmərəli töhfələrini verməkdədir [2, s. 7].

Araşdırmalara əsasən bütün gəmi təmiri müəssisələrinin ümumi inkişaf problemlərini müəyyən etmişik (cədvəl 2).

Daxili bazarda formalaşan tələb sahədaxili rəqabətin əsası hesab olunur. Daxili rəqabət milli bazarda müəssisənin mövqelərini möhkəmləndirməklə yanaşı, onların xarici bazarlara çıxmasına və keyfiyyətli məhsul istehsalına şərait yaradır. Digər tərəfdən, daxili rəqabət mübarizə edən sənaye müəssisələrinin texnoloji-texniki və iqtisadi cəhətdən təkmilləşməsinə imkan yaradır. Ölkənin gəmiqayırma sənayesi daxili rəqabətin formalaşması və inkişafı baxımından mühüm əhəmiyyətə malik olması ilə yanaşı, gəmiqayırma müəssisələrinin yeni müasir tələblərə cavab verən müxtəlif növ əmtəə və xidmət sahələrinin yaradılmasını stimullaşdırır [5, s. 113].

Gəmi təmiri müəssisələrinin inkişaf istiqamətləri

Hazırda ölkəmizin iqtisadiyyatının stabilliyinə və dayanıqlılığına əsasən donanmanın inkişaf perspektivlərinə inam artmışdır. Belə şəraitdə hansı donanmanın qurulacağını və gəmi təmiri müəssisələrinin hansı hədəflərlə çıxış etməsini bilmək lazımdır. Gəmi təmiri müəssisələrini inkişaf etdirmək üçün innovativ ideyalar bankının yaradılması məqsədəuyğundur. Bunun üçün ilk növbədə ölkəmizdə tamhüquqlu innovasiyalara dəstək proqramına çevrilə bilən milli vençur fondunun yaradılmasına ehtiyac vardır. İndiyədək ölkəmizdə gəmi təmiri sahəsində bütün investisiya layihələri öz vəsaitləri, yaxud da borc vəsaitləri hesabına həyata keçirilirdi və innovativ sahibkarlığa heç bir iqtisadi üstünlüklər verilmirdi.

Hər bir müəssisə müştərilərini itirmək riski ilə qarşılaşdığından onları dərindən təhlil etməli, onların etibarlılıq və məmnunluq dərəcələrini qiymətləndirməli, hansı halda müştərilərin müəssisələri tərketmə ehtimalının səbəblərini müəyyən etməlidir: ola bilər ki, rəqiblər daha yaxşı təkliflə müştəriləri cəlb edir və ya müəssisə ilə münasibətdə, işin keyfiyyətində problemlər mövcuddur [7, s. 52].

Gəmi təmiri müəssisələrini inkişaf etdirmək üçün onların kredit resurslarına çıxış imkanları olmalıdır. Bunun üçün kredit faizlərinin azaldılmasına davam etməyə, kredit müddətini artırmağa və kredit almaq prosedurlarının asanlaşdırılmasına ehtiyac vardır. Gəmiqayırma sənayesində fəaliyyət göstərən gəmi təmiri müəssisələrinin vergi yükü daha da azaldılmalıdır.

İnnovativ idarəetmənin öz xüsusiyyətləri olduğuna görə gəmi təmiri müəssisələrini inkişaf etdirmək üçün yüksək ixtisaslı mühəndislərə, işçilərə və menecerlərə ehtiyac vardır.

Yeniliklərin heç bir yerdə yaranmadığına görə iri gəmiqayırma və gəmi təmiri müəssisələrinin ətrafında elmi komplekslərin və texnoparkların təşkil edilərək inkişafına ehtiyac vardır. Yəqin ki, gəmi təmiri müəssisələrinin qarşılaşdıqları problemlərin siyahısını davam etdirmək mümkündür. Lakin buna baxmayaraq hesab edirik ki, artıq yığılmış problemlərin balanslaşdırılmış həlli yollarını müəyyənləşdirməyin vaxtı çatmışdır.

Cədvəl 2

Gəmi təmiri müəssisələrinin inkişaf problemləri [11, s. 91]

Problem sahəsi	Gəmiqayırma müəssisələrinin problemləri	Mövcud problemlərin əsas səbəbləri
Gəmi təmiri müəssisələrinin işçiləri	Kadr dəyişikliyinin yüksək dərəcəsi; yeni qəbul edilmiş işçilərin aşağı ixtisas dərəcəsi; əmək bazarında lazımi peşə hazırlığı mütəxəssislərinin olmaması; gəmi təmiri müəssisələrinin işçilərinin yaş tərkibi (56,9 yaş mühəndislərin orta yaşı, 53 yaş işçilərin orta yaşıdır)	Gəmi təmiri müəssisələrində əməkhaqqının aşağı səviyyəsi; qeyri-qənaətbəxş iş şəraiti; gəmi təmiri peşələrinin nüfuzunun olmaması; gənclər üçün cəlbedici olmayan köhnəlmiş avadanlıq və texnologiya; ali texniki təhsilin keyfiyyətinin aşağı düşməsi; gəmi təmiri müəssisələrinin gələcək perspektivlərində qeyri-müəyyənlik; təhsil müəssisələri ilə gəmi təmiri müəssisələri arasında tərəfdaşlıq əlaqələrinin pozulması
İstehsal fondları və texnoloji imkanlar	Mənəvi və fiziki cəhətdən köhnəlmiş əsas vəsaitlərin yüksək dərəcədə köhnəlməsi; əsas vəsaitlərin «yenilənməsi» qanununun pozulması; aşağı investisiya aktivliyi; 1980-ci illərdən köhnəlmiş texnologiyalardan istifadə; səviyyənin aşağı düşməsi və ya dizayn və texnoloji hazırlığın olmaması; dövriyyə kapitalının idarə edilməsinə səmərəsiz yanaşmalar; gəmi təmiri müəssisələri ilə bağlı tədqiqat işlərinin aparılmaması və marketinq tədqiqatlarının olmaması	Gəmi təmiri müəssisələrinin idarə edilməsinə strateji yanaşmanın olmaması; korporativ top menecerlər tərəfindən şəxsi məqsədlərə nail olmaq; kapitalın qeyri-kafi səviyyəsi; səmərəsiz vergi rejimi; əlverişsiz kredit şərtləri; İnhisarçı müəssisələrdən yüksək enerji qiymətləri; regional hakimiyyət orqanları və dövlət tərəfindən aşağı investisiya marağı
Gəmi təmiri müəssisələri üçün daxili bazar	Bazarda idxal olunan məhsulların üstünlük təşkil etməsi; daxili bazara nəzarət üçün korrupsiya sxemləri; müştərilərin ödəmə tələbinin aşağı səviyyədə olması; yerli istehsalçıları dəstəkləmək üçün dövlət siyasətinin olmaması; faydalı qazıntılar hasil edən müəssisələr və onlar üçün unikal avadanlıq yaradan və onlara xidmət göstərən müəssisələr arasında icarə haqqının yenidən bölüşdürülməsi mexanizminin olmaması	Gəmi təmiri müəssisələrinin yüksək ixtisas dərəcəsi və bu müəssisələrdən məhsul və xidmətlər sifariş edən subyektlərin ödəmə qabiliyyətindən asılılığı; region daxilində müəssisələr arasında güclü qarşılıqlı faydalı tərəfdaşlığın olmaması; hökumət tərəfindən inteqrasiya işinin olmaması; yalnız «seçilmiş» istehsalçıları dəstəkləmək üçün diskret cəhdlər; resurs istehsalı bazasının yüksək qiyməti
Xarici bazar	İdxal satınalmalarının siyasi “kölgəsi”; ölkənin gəmi təmiri müəssisələrinin təcrübəsi və rəqabət qabiliyyətinin olmaması	Dövlətlər arasında alıcılıq qabiliyyətinin əlverişsiz pariteti; gəmi təmiri müəssisələrinin mal və xidmətlərinin rəqabət qabiliyyətinin aşağı səviyyəsi; potensial müştərilər tərəfindən «əlaqəli» xarici kredit mənbələrindən istifadə

Nəticə

Gəmi təmiri müəssisələrinin növlərini nəzəri baxımdan araşdıraraq və onların inkişaf problemlərinin əsas istiqamətlərinin müəyyənləşdirilməsinə dair nəticələri ümumiləşdirərək tövsiyələrimizi hazırlamışıq. Beləliklə, hesab edirik ki, tövsiyələrimiz məntiqi və ardıcıl bir yanaşma əsasında nəzərə alınaraq səmərəli strategiyanın yaradılması ilə ölkəmizin gəmi təmiri müəssisələrinin inkişaf problemlərinin əsas hissəsini aşağıdakı istiqamətlərdə həll etməyə imkan verəcəkdir:

- dövlət dəstəyinin göstərilməsi və rəqabət qabiliyyəti nəzərə alınmaqla Rusiya, Cənubi Koreya, Yaponiya və Çin ilə müəyyən müqayisələrin aparılmasına zərurət vardır;
- qanunvericilik bazasının qabaqcıl təcrübəyə əsasən təkmilləşdirilməsi;
- klasterlər əsasında gəmi təmiri müəssisələrinin strateji inkişaf planının yaradılması;
- rəqabətə davamlılığın artırılmasına yönəlmiş vahid metodologiyaya və müqayisəyə əsaslanan göstəricilər sistemi əsasında planların həyata keçirilməsi prosesinin hərtərəfli monitorinqinə fərqli yanaşılma;
- diaqnostik və strateji göstəricilərin hesablanması məqsədilə təcrübi olaraq əhəmiyyətli bir yanaşmanın həyata keçirilməsi.

ƏDƏBİYYAT

1. «Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər» haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // 2 fevral 2021-ci ildə imzalanmışdır. - Bakı: 2021.
2. Beynəlxalq Dəniz Təşkilatının Alətlərinin Tətbiqinə dair Strategiya 2016-2021 // Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası. - Bakı: 2016. - 21 s.
3. Dəniz nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 11 oktyabr 2021-ci il tarixli, 1462 nömrəli Fərmanı // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, - Bakı: - 2021. №10.
4. Hüseynov, Ə.A. Müasir şəraitdə ölkə sənayesinin restrukturizasiyasının əsas istiqamətləri // - Bakı: İpək Yolu, - 2017. №1, - s. 40-49.
5. İsmayılov, E. Azərbaycanda rəqabətqabiliyyətli maşınqayırma sənayesinin formalaşması və inkişaf istiqamətləri / E.İsmayılov, B.Danyalova // İqtisadi Artım və İctimai Rifah, - Bakı: - 2022. №2, - s. 106-115.
6. Məmmədova, M.B. Balanslaşdırılmış göstəricilər sistemində səmərəliliyin artırılması mexanizmləri / M.B.Məmmədova, M.Ə.Axundov // Maliyyə və uçot, - Bakı: - 2017. №8 (303), - s. 29-35.
7. Məmmədova, M.B. Həyat və biznes dərsləri / M.B.Məmmədova - Bakı: Papirus,- 2019.-176 s.
8. Məmmədova, M.B. Maliyyə idarəetməsi sistemində büdcələşdirmə prosesinin rolu / M.B.-Məmmədova, A.K.Mikayılov // Azərbaycan neft təsərrüfatı, - Bakı: - 2016. №12, - s. 49-55.
9. Yadigarov, T.A. Azərbaycan iqtisadiyyatında dəniz nəqliyyatı: problemlər və perspektivlər / T.A.Yadigarov - Bakı: - Avropa, - 2018. - 350 s.
10. Барышников, С.О. Оптимальная дефектация корпусов судов речного флота / С.О.Барышников, А.Б.Красюк, В.Б.Чистов // Вестник Государственного университета морского и речного флота имени адмирала С.О.Макарова, - Санкт-Петербург: - 2022, 14(6), - с. 915-930.
11. Турчанинова, Т.В. Инновационное развитие судоремонтных предприятий в рамках морехозяйственной деятельности приморского региона Арктической зоны России / Т.В.Турчанинова, В.Е.Храпов. - Апатиты: Издательство Кольского научного центра, - 2021. - 135 с.
12. Юденко, А.Н. Нормативы как важнейший элемент управления трудоемкостью строительства и ремонта кораблей и судов // - Санкт-Петербург: Труды Крыловского государственного научного центра, - 2021. Специальный выпуск №2, - с 80-83.
13. Kaune, J.E. Managing the Shipyard Process - Key to Success // Naval Engineers Journal, - 1979, №91, pp. 81-93. https://doi.org/10.1111/j.1559-3584.1979.tb03914.x
14. Manea, M-G. Shipbuilding-An Analysis from the Perspective of Enterprise Resources Planning System / M-G.Manea, E.Manea // World Journal of Engineering and Technology, - 2023. Vol. 11, №1.

Мирвари Бейлар кызы Маммедова
Головной Офис Государственной Нефтяной Компании Азербайджанской Республики (SOCAR),
Департамент “Бюджет и планирование”
Начальник отдела “Бюджетирование”,
доктор философии по экономике,

Галиб Бахрам оглы Гаджиев
Докторант Центра Аграрных Исследований,
доктор философии по экономике, доцент,

Виды судоремонтных предприятий и проблемы их развития

Резюме

Цель исследования - теоретическое исследование видов судоремонтных предприятий в современных экономических условиях и выявление проблем их развития.

Методология исследования - в исследовательской работе использованы методы логического обобщения, системного подхода, анализа и синтеза.

Прикладное значение исследования - фундаментальные исследования в исследовании имеют возможность создания условий для выявления основных направлений проблем развития судоремонтных предприятий.

Результаты исследования - разработанные нами рекомендации позволят решить основную часть проблем судоремонтных предприятий в судостроительной отрасли нашей страны путем создания эффективной стратегии с учетом всех проблем на основе логического и последовательного алгоритма.

Оригинальность и научная новизна исследования - для изучения особенностей развития судоремонтных предприятий обоснована необходимость организации судоремонта в условиях модернизации экономики нашей страны, определены виды судоремонтных предприятий и направления регулирования вопросов, связанных с ремонтом.

Ключевые слова: судоремонт, судостроение, экономика, промышленность, предприятие, вид, развитие, проблема.

Mirvari Beylar Mammadova
Head Office of the State Oil Company of the Republic of Azerbaijan (SOCAR), «Budget and Planning» Department
Head of the «Budgeting» Department, doctor of economics

Galib Bahram Hajiyev
Doctoral student of the Agrarian Research Center, doctor of economics, associate professor

Types of shıp repaır ınstıtutıons and theır development problems

Summary

The purpose of the study is to theoretically examine the types of shipyard companies in modern economic conditions and to determine their development problems.

Research methodology - logical generalization, systematic approach, analysis and synthesis methods were used in the research work.

The importance of applying research - fundamental studies in the research have the opportunity to create conditions for determining the main directions of the development problems of ship repair enterprises.

The results of the research - our developed recommendations will allow us to solve the main part of the problems of ship repair enterprises in the shipbuilding industry of our country by creating an effective strategy, taking into account all the problems based on a logical and consistent algorithm.

The originality and scientific novelty of the research - to study the features of the development of ship repair enterprises, the need to organize ship repair in the conditions of modernization of the economy of our country was substantiated, the types of ship repair enterprises and the directions for regulating issues related to repair were determined.

Keywords: ship repair, shipbuilding, economic, industry, enterprise, type, development, problem.